DOI:10.30546/gdu.2023.91-94

**UOT 94, 21**

# UŞAQ ENSİKLOPEDİYALARININ NƏŞRİ VƏZİYYƏTİ: I VƏ VI BÖLMƏ ƏSASINDA

***doktorant Elməddin Behbud***
***Bakı Dövlət Universiteti***
***İnformasiya və sənəd menecmenti fakültəsinin Redaksiya-nəşriyyat işi kafedrası***
***elmeddinbehbud85@gmail.com***

**Xülasə:** *Məqalədə "Qanun" və "Əli və Nino" nəşriyyatlarının birgə çap etdiyi "Yeni uşaqensiklopediyası"ndan bəhs edilir. Tədqiqata cəlb edilən bu ensiklopediya ümumilikdə 10 bölmə, 130 yarımbölmədən ibarətdir. Məqalədə adıçəkilən ensiklopediyanın məzmun və bədii-texniki tərtibat məsələləri konkret nümunələr əsasında ətraflı təhlil edilib. Məqalədə müasir dövrdə ölkəmizdə uşaq ensiklopediyalarının nəşrində özəl nəşriyyatların rolu xüsusi qeyd olunur. Təhlilə cəlbedilən ensiklopedik nəşrlər əsasında aşkar edilən nöqsanlar tədqiqatçı tərəfindən önə çıxarılır, eyni zamanda bir sıra təklif və tövsiyələr irəli sürülür.*

**Açar sözlər:** uşaq ensiklopediyası, məlumat, nəşr, soraq-məlumat, məqalə, kitab, nəşriyyat, mətn

**Key words:** children's encyclopedia, information, publication, query-information, article, book, publisher, text

**Ключевые слова:** детская энциклопедия, информация, публикация, запрос-информация, статья, книга, издательство, текст

## Giriş

Cəmiyyətdə informasiyanın toplanması və yayılması prosesinin idarə edilməsi və ondan istifadə üçün etibarlı qaynaqların yaradılması zərurəti soraq-məlumat nəşrlərinin spesifik əhəmiyyətini daha da artırır. Bu vəziyyət informasiya ehtiyatlarından daha səmərəli istifadəni zəruri edir. Araşdırmalar göstərir ki, cəmiyyətin inkişafı informasiya axınının artması ilə müşahidə olunur və bunlar bir-biri ilə qırılmaz şəkildə bağlıdır. Bütün bunlar müxtəlif məzmunlu informasiyaların öyrənilməsi, toplanması, emalı və oxuculara çatdırılmasında mühüm və etibarlı vasitələrdən hesab olunan soraq-məlumat nəşrlərinin kompleks şəkildə inkişaf etdirilməsini zərurətə çevirir.

Soraq-məlumat nəşrləri elm, texnika, mədəniyyət, ədəbiyyat, incəsənət və digər sahələrdə özünü təsdiq etmiş məlumatları, bilikləri xüsusi standartlara uyğun şəkildə özündə cəmləşdirir. Bu cür kitabların yığcamlığı və məlumatların aydınlığı bütün dövrlərdə insanların diqqətini özünə cəlb edib. Soraq-məlumat nəşrləri inkişaf edərək xüsusi nəşr növünə çevrilib. Onların başlıca, əsas sosial funksiyası, başqa sözlə, təyinatı müxtəlif məlumatları ən əlverişli formada oxuculara, daha geniş mənada tələbatçılara çatdırmaqla şərtlənir. Başlıca olaraq ordan-burdan mütaliə üçün nəzərdə tutulur [1, s.19].

Müasir dövrdə sahə ensiklopedik nəşrlərinin buraxılması sahəsində "Qanun" və "Əli və Nino" nəşriyyatlarının müştərək fəaliyyəti xüsusi ilə diqqəti cəlb edir. Son dövrlərdə bu nəşriyyatlar xeyli sayda ensiklopedik nəşrlər çap edib. "Qanun" və "Əli və Nino" nəşriyyatları 9000-dən artıq qeyd, faktlar, məqalələr və 2500 rəngli şəkildən ibarət "Yeni uşaq ensiklopediyası"nı 2006-cı ildə 300 tirajla çap edib. Nəşri ingilis dilindən ana dilimizə Könül Bayramova tərcümə edib. Ensiklopediyanın redaktorları Rövşən Ağayev və Fəxrəddin Ağazadədir. Nəşrin korrektoru Günay Həsənova, rəssamı isə Liz Murdur. Yeni uşaq ensiklopediyası mövzular üzrə hissələrə bölünüb və hər biri üzrə maraqlı məqalələr verilib: "Kosmos", "Yer planeti", "Ətraf mühit və ekologiya", "Canlı aləm", "Dünyanın qitələri", "Mədəniyyət", "Tarix və siyasət", "Elm", "Texnologiya", "İnsan bədəni" və s.

DOI:10.30546/gdu.2023.91-94

Ensiklopediyanın əvvəlində təqdim edilən girişdə yazılır: “Hər bir uşağın dünya və onun yaranması, bitkilərin inkişaf səbəbləri, Günəşin niyə parlaması, insan orqanizminin necə işləməsi, keçmişdə nələrin baş verməsi və niyə digər ölkələrin onun yaşadığı ölkədən fərqli olması haqqında suallarına cavab veərəcək bir kitaba ehtiyacı var.

Düzgün istiqamətləndirildiyi zaman, bu ilkin əldə etmək istəyi həyat boyu davam edəcək kəşf və anlamaya gətirib çıxara bilər. Bu ensiklopediya – aydın və dəqiqi informasiyaları vasitəsilə uşaqların diqqətini çəkəcək və onları oxumağa cəlbedici vizual formada təqdim etməklə gənc oxucuları özləri üçün bu kəşfləri etməyə həvəsləndirmək məqsədi güdür” [2, s.4].

“Kosmos” bölməsində uşaqlara əvvəlcə kosmosun tərifi təqdim edilir: “Kosmos özündə bütün Kainatı – planetlər, ulduzlar və qalaktikaları birləşdirir. Böyük partlayışdan sonra yaranan Kainat həmin vaxtdan icə doğru genişlənməkdə davam edir” [2, s.7].

Kitabın hər bir səhifəsindəki məqalənin məzmununa uyğun foto şəkillər verilib. “Bizə ən yaxın ulduz hansıdır?” sualından sonra yazılır: bax səhifə 12-13-ə, “Ən böyük planet hansıdır”? bax səhifə 16-17-yə, “Habbl teleskopu orbitə nə zaman daxil olub”? bax səhifə 20-21-ə, “Hansı özühərəkətedən aparat 2004-cü ildə Marsa enib”? bax səhifə 26-27-yə [2, s.6-7].

“Kosmos” bölməsi “Kainat”, “Qalaktikalar”, “Qaz topaları”, “Günəş sistemi”, “Uçan qaya parçaları”, “Kosmosun kəşfi”, “Apollon proqramı”, “Kosmosun öyrənilməsi”, “Qırmızı planet” adlı doqquz yarımbölmədən ibarətdir.

Ensiklopediyada ikinci bölmə “Yer planeti” adlanır. Bu bölmə “Bizim unikal dünyamız”, “Dinamik planet”, “Vulkanlar və zəlzələlər”, “Dağların yaranması”, “Süxurlar və minerallar”, “Süxur və mineral bələdçisi”, “Yer kürrəsinin sərvətləri”, “Eroziya”, “Zamana baxış”, “Qiymətli su”, “Dünya okenları”, “Atmosfer və iqlim”, “Ekstremal hava” adlı on üç yarımbölmədən ibarətdir və 28-ci səhifədən 55-ci səhifəyə qədər davam edir [2, s.28].

Burada qeyd olunur ki, Yer palaneti 4,5 milyard il əvvəl qaz və toz buludlarından yaranıb. Yerin daxili özəyi Günəşin səthi qədər istidir. O öz oxu ətrafında saatda 1600 km və ya 1000 mil sürətlə fırlanır. Yer səthinin yetmiş faizi su ilə örtülüdür və bunun böyük hissəsi duzlu sudur. Yer dünyada həyatın mövcud olduğu yeganə planetdir.

Mətnin sonunda suallar qoyulur: “Su sahil xətlərinin formalaşmasına necə təsir edir?” bax səhifə 45; “Fluoridin çəkisi nə qədərdir?” bax səhifə 41, “Külək nəhəng daş heykəllərin yaranmasına necə səbəb ola bilər” bax səhifə 44, “Yerdə fəsillərin dəyişməsinin səbəbləri nədir?” bax səhifə 53 kimi qeyd olunub [2, s.28-29].

“Ətraf mühit və ekologiya” adlanan üçüncü bölmədə “Ümumi planet”, “Yaşayış yerləri”, “Səhralar”, “Çəmənliklər”, “Meşələr”, “Dağlar”, “Qütb regionları”, “Şirin su və bataqlıqlar”, “Okean və dəniz həyatı”, “Mərcan lifləri”, “İqlim dəyişikliyi”, “Gələcəyə baxış” adlı on iki yarımbölmə əksini tapıb. Bu bölmə kitabın 56-cı səhifəsindən 81-ci səhifəyə qədər davam edir.

Bu bölmədə ətraf mühit, ekologiya, karbon qazının dövrəsi, dünya biomları, yaşayış yerinin parçalanması, qum fırtınası, mülayim qurşağda yerləşən çəmənliklər, rütubətli meşələr, boreal meşələr, mülayim qurşağın meşə zonası, dağ yüksəklikləri və alçaqlıqları, dağların yaranması, Arktika, Antraktika, tundra, təhlükəsiz sığınacaq, şirin su hövzələri, qida zənciri, gölməçə həyatı, balıq sığınacaqları, üzgüçülər, qara tütünçəkənlər, sahillər, mərcanlar üçün təhlükə, dəniz ulduzu, qlobal istiləşmə, iqlim dəyişikliyinin təsiri, qazanxana qazları, enerjiyə qənaət, çirklənmənin qarşısının alınması, toxumların qorunması, konvervasiya və s. haqqında maraqlı məqalələr verilib.

“Canlı aləm” adlı dördüncü bölmə “Yer kürrəsində həyat”, “Bitkilər aləmi”, “Bitki tipləri”, “Bitkilərin çoxalması”, “Heyvanlar aləmi”, “Məməlilər”, “Məməlilər – rekordsmenlər”, “Ətyeyən yırtıcılar”, “Suda-quruda yaşayanlar”, “Sürünənlər”, “Quşlar”,

DOI:10.30546/gdu.2023.91-94

"Pinqivinlər və yırtıcı quşlar", "Balıqlar", "Onurğasızlar", "Əsrarəngiz buğumayaqlılar", "İnanılmaz həşəratlar", "Taxtabitilər və böcəklər", "Dəniz onurğasızları", "Burada nə edirsən?", "Mikroorqonizmlər", "Qədim heyvanlar" adlı iyirmi bir yarımbölmədən ibarətdir.

Bu bölmədə fotosintez, çiçəkli bitkilər, davamli çiçəkli bitkilər, çiçəklərin növləri, bitkilərin təkamülü, yarasa, birdəliklilər, primatlar, təhlükəli zəhər, zəhərli qızıl qurbağa, Avropa qurbağası, xallı salamandr, əyilmiş bel sümüyü, timsahlar və alliqatorlar, tısbağalar və dəniz tısbağaları, kərtənkələr, uçmaq üçün lələklər, dimdik formaları, uçmayan quşlar, yırtıcı quşlar, mavi lələkli skat, təlxək balıq, fuqu balığı, zolaqli ankvil balığı, piranya balığı, nəhəng ağ köpək balığı, kril, qarışqalar, həşəratlar, hörmüçəkkimilər, dodaqayaqlılar və ikiqoşaayaqlılar, xərçəngkimilər, dəniz hörmüçəkləri, səkkizayaqlı ilbizin anatomiyası, qırmızı dəniz ulduzu, buynuzlu kabus yengəci, sarı boruşəkilli süngər, avropa omarı, dəniz ilbizi, sığınbuynuzlu mərcan, şiryallı meduza, qaymaqçiçəyi, uçan gekkonlar, bakteriya, kiçik əjdahalar, dinozavr, dimetrodon və s. haqqında maraqlı və lakonik məqalələr verilib.

"Dünyanın qitələri" adlanan beşinci bölmə "Bizim dünyamız", "Şimali Amerika", "Şimali Amerikada həyat", "Cənubi Amerika", "Cənubi Amerikada həyat", "Afrika", "Afrikada həyat", "Avropa", "Avropada həyat", "Asiya", "Asiyada həyat", "Avstraliya və Okeaniya", "Avstraliya və Okeaniyada həyat", "Dünya bayraqları" adlı on dörd yarımbölməyə ayrılıb. Burada Şimali Amerika, qütb dairəsi, Şimali Amerikada sənaye, landşaft, iribuynuzlu mal-qara yetişdirilməsi, idman, musiqi, maşın sənayesi, yerli amerikalılar, Cənubi Amerika, Amazon meşələrində heyvanlar, təhlükədə olan ərazilər, Atakama səhrası, landşaft, məşhur cənubi amerikalılar, vəhşi təbiət, qida, turizm, sənaye, futbol, kənd təsərrüfatı, musiqi, Afrika haqqında məlumatlar, Saxara, dəyişkən landşaft, ənənəvi Afrika kəndləri, kənd təsərrüfatı, qida, sənaye, vəhşi təbiət, Avropa, Alp dağları, xilasedici it, Avropa İttifaqı, məşhur avropalılar, idman, musiqi, turizm, izdihamlı qitə, Asiya haqqında məlumatlar, Qanq, Delta, məşhur Avstraliyalılar, vəhşi təbiət və s. haqqında məqalələr yer alıb [2, s.126-155].

Ensiklopediyanın altıncı bölməsi "Mədəniyyət" adlanır. Burada on bir yarımbölmə verilib: "Dünya dinləri", "Bayramlar", "Dünya incəsənəti", "Müasir incəsənət", "Yazı və çap", "Təhsil", "Musiqi", "Orkestr", "Gəlin hərəkət edək", "İdman", "Memarlıq". "Dünya dinləri" bölməsində xristianlıq, iudaizm, səmavi dinlər, islam, quran, tövrat, siqhizm, hinduizm, buddizm, şamanizm, konfutsiçilik, aborgenlərin dini inancları və s. haqqında məqalələr əksini tapıb.

Sonuncu bölmə "İnsan bədəni" adlanır. Bura on yarımbölmə daxil edilib: "Sənin bədənin", "Sümüklər", "Bacarıqlı əzələlər", "Qan dövranı", "Düşün! Hərəkət et!", "Dünyanı hiss etmə", "Tənəffüs", "Qida axını", "Həyatın başlanması", "Sağlam qal".

## *Nəticə*

Məlum olur ki, müstəqillik illərində uşaq ensiklopediyalarının nəşri və redaktə məsələlərində xeyli irəliləyişlər əldə olunub. Belə ki, nəşriyyatlar tərəfindən uşaqlar üçün müxtəli növlü ensiklopediyalar çap edilmişdir. Bu nəşrlər təbii ki, nöqsansız deyildir. Bu nəşrləri təhlil etmək, mövcud nöqsanların aradan qaldırılması üçün təkrar səhvlərə, yanlışlıqlara yol verməmək üçün redaktordan səriştə və bacarıq tələb edilir. Fikrimizcə uşaq ensiklopediyalarının tərtibində, nəşrə hazırlanmasında ixtisaslaşmış nəşriyyatlara bu işi həvalə etmək daha məqsədəuyğun olardı. Çünki uşaqlar üçün nəzərdə tutulmuş ensiklopediyaların nəşri çox çətin, mürəkkəb və məsuliyyət tələb edən işdir.

Ölkəmizdə uşaq ensiklopediyalarının nəşr edilməsində "Qanun" və "Əli və Nino" nəşriyyatlarının müştərək layihələrinin rolu böyükdür. Uşaq ensiklopediyalarında illüstrasiyaların hazırlanması mətnin qavranılması baxımından mühüm əhəmiyyətə malikdir. İllüstrasiyaların tərtib edilməsi işini əvvəllər rəssamlar icra edirdisə, indi bu iş nəşriyyatda

DOI:10.30546/gdu.2023.91-94

fəaliyyət göstərən dizaynerlərə həvalə edilir. Dizaynerlərin tərtib etdiyi illüstrativ materiallar bəzən uğurlu, bəzən isə uğursuz alınır. Ensiklopediyaların tərtibində şriftləri düzgün seçilməsi, tərtibata daxil edilməsi də vacib məsələlərdən biridir. Uşaq ensiklopediyalarının nəşrində şriftlərin düzgün seçilməsi mətinlərin rahat, rəvan oxunması üçün olduqca vacibdir.

Ensiklopedik nəşrlərin çapa hazırlanmasında üz qabığının düzgün tərtib olunması da vacib məsələlərdən biridir. Uşaqlar üçün nəzərdə tutulmuş ensiklopediyalarda mövzuya uyğun olaraq, qabığının işlənməsi həm bədii tərtibat redaktorunun, həm də dizaynerin müştərək işinin nəticəsi kimi ortaya çıxır. "Qanun" və "Əli və Nino" nəşriyyatlarının müştərək layihələri olan "Yeni uşaq ensiklopediyası" və "Böyük uşaq ensiklopediyası"larının hər biri super cilddə verilib. Bu da onun uşaqların ehtiyatsız davranmasında mühafizə olunması üçün vacib şərtlərdən biridir. Uşaq ensiklopediyalarının supercilddə nəşr edilməsi təqdirəlayiqdir. Baxmayaraq ki, bu, nəşriyyat xərclərinin artmasına səbəb olan faktorlardandır.

***Ədəbiyyat***

1.Quliyeva, S. Azərbaycan soraq-məlumat ədəbiyyatı. – Bakı: "Təhsil", 2006. -176 s.
2.Yeni uşaq ensiklopediyası. – Bakı: "Qanun" nəşriyyatı, "Əli və Nino" nəşriyyatı. 2016.-300

## СОСТОЯНИЕ ИЗДАНИЯ ДЕТСКИХ ЭНЦИКЛОПЕДИЙ

***Эльмеддин Бехбуд***

***Резюме***

Статья о «Новой детской энциклопедии», изданной совместно издательствами «Ганун» и «Али и Нино». В энциклопедии 10 разделов и 130 подразделов. Вопросы содержания и художественно-технического оформления энциклопедии, затронутые в статье, были подробно проанализированы на конкретных примерах. В статье упоминается роль частных издательств в выпуске этих энциклопедий. Недостатки, выявленные на основе включенных в анализ энциклопедических изданий, были выделены исследователем, а вместе с тем выдвинут ряд предложений и рекомендаций.

## THE STATE OF PUBLİCATİON OF CHİLDREN'S ENCYCLOPEDİAS

***Elmeddin Behbud***

***Summary***

An article about the "New Children's Encyclopedia", published jointly by the publishing houses "Ganun" and "Ali and Nino". The encyclopedia has 10 sections and 130 subsections. The issues of the content and artistic and technical design of the encyclopedia, touched upon in the article, were analyzed in detail using specific examples.

The article mentions the role of private publishers in the production of these encyclopedias. The shortcomings identified on the basis of the encyclopedic publications included in the analysis were highlighted by the researcher, and at the same time, a number of proposals and recommendations were put forward.

***Rəyçi: dos. P.Kazımi***
***Redaksiya-nəşriyyat işi kafedrasının 14.06.23 tarixli iclası.***
***Daxil olduğu tarix 20 iyun 2023-cü il***